www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-12 (1751) 30 iyun 2022-ci il




## Naxçıvanda Birinci Beynəlxalq Tibbi Forum keçirilib

**Professor Gəray Gəraybəyli: Ulu öndərin vətənində unikal tərkibə malik forumda iştirak etmək qürurvericidir**

səh. 3

### Milli Qurtuluş Günü qeyd edilib

səh. 2

### Qazi Universitetinin nümayəndə heyəti ATU-da olub

səh. 2

### NDU ilə əməkdaşlıq istiqamətlərimiz genişləndirilir

səh. 3



### ATU-nun rəhbərliyi Macarıstana işgüzar səfər edib

Səfər zamanı Azərbaycan səfirliyində, Semmelveis və Peç universitetlərində görüşlər keçirilib

səh. 2

### Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib

***Ölkə səhiyyəsi ildən-ilə inkişaf edir, dövlət büdcəsindən bu sahəyə ayrılan vəsait mütəmadi artırılır***

səh. 2

### Məzunlarımız müstəqil həyata hazırdır

***Uğurlu karyera üçün onlar ATU-da həm yüksək təhsil, həm də praktik bacarıqlar əldə ediblər***

səh. 6



### Buraxılış Dövlət İmtahanları yüksək səviyyədə keçirilib

Professor Gəray Gəraybəyli: Universitet üzrə ümumi göstəricilər qənaətbəxşdir, komissiya üzvləri və tələbələrimiz yekun nəticələrdən razı qalıblar

səh. 4



# Milli Qurtuluş Günü qeyd olunub

**Professor Gəray Gəraybəyli: Tariximizə qızıl hərflərlə yazılmış 15 iyun günü böyük ictimai, siyasi əhəmiyyətə malikdir**

**15 İyun – Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Tibb Universitetində ulu öndər, ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb. ATU-nun rektoru, professor Gəray Gəraybəyli başda olmaqla universitetin rəhbər şəxsləri 5 saylı tədris binasında ulu öndərin büstü qarşısına əklil və gül dəstələri düzərək onun xatirəsini ehtiramla yad ediblər.**

Professor Gəray Gəraybəyli 15 iyun tarixini xalqımızın gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsasının qoyulduğu gün kimi qiymətləndirib. Onun fikrincə, tariximizə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Günü böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyevdir.

Rektor 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişinin Azərbaycan səhiyyəsi qarşısında da yeni perspektivlər açdığını qeyd edib: "Heydər Əliyevin rəhbərliyi dövründə XX əsrin sonları, XXI əsrin əvvəllərində respublikanın bütün bölgələrində yeni tibb müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırıldı, V.Axundov adına Elmi-Tədqiqat Tibbi-Profilaktika İnstitutunda Yoluxucu Xəstəliklər Xəstəxanasının, Nüvə-maqnit Rezonans Mərkəzinin, Mərkəzi Klinik Xəstəxananın, Azərbaycan Tibb Universitetinin yeni tədris binasının, unikal akt zalının və bir sıra digər səhiyyə obyektlərinin açılışı oldu.

Ulu öndərin tibb elminə, tibb təhsili sisteminə göstərdiyi qayğı sayəsində 1996-cı ildə Azərbaycan Tibb Universiteti Amerika və Avropa Təhsil Birliyinin beynəlxalq reyestrinə daxil edildi, bunun da sayəsində beynəlxalq əlaqələrimiz daha da genişləndirildi, xarici ölkələrin ali tibb müəssisələri ilə tələbə mübadiləsi aparılması lazımi səviyyəyə çatdırıldı. Tibb alimlərinə, həkimlərə, bütün səhiyyə işçilərinə xüsusi qayğı ilə yanaşan ulu öndər Heydər Əliyev iki dəfə - 1998 və 2000-ci illərdə Azərbaycan Tibb Universitetində olub. Hər dəfə də ali tədris ocağında geniş nitq söyləyərək həm tələbələrə, həm professor-müəllim heyətinə, həm də bütövlükdə bütün səhiyyə işçilərinə dəyərli tövsiyələrini verib.

Hərbi tibb fakültəsi ümummilli liderin 25 may 2000-ci il tarixli Fərmanına uyğun olaraq, hərbi tibb kadrlarının hazırlığı məqsədilə yaradılıb. 44 günlük Vətən müharibəsində qazandığımız şərəfli qələbə bu addımın müdrikliyini bir şaha bizlərə sübut etmiş oldu.

İllər ötsə də, ulu öndər Heydər Əliyevin dahi siyasətçi kimi əziz xatirəsi daim könüllərimizdə yaşayacaq".

# ATU-nun rəhbərliyi Macarıstana işgüzar səfər edib

**Səfər zamanı Azərbaycan səfirliyində, Semmelveis və Peç universitetlərində görüşlər keçirilib**

**Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti Macarıstanın paytaxtı Budapeşt şəhərində işgüzar səfərdə olub. Səfər zamanı Azərbaycanın bu ölkədəki səfirliyində, Budapeşt Semmelveis Universitetində və həmin ali məktəbin tədris klinikalarında görüşlər keçirilib.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli və Tərbiyə işləri üzrə prorektor, dosent Zülfüqar Musabəyovun Macarıstandakı səfirimiz Tahir Tağızadə ilə görüşü zamanı 30 il ərzində iki ölkə arasında diplomatik əlaqələrin yüksələn xətlə inkişaf etdiyi və artıq strateji tərəfdaşlıq səviyyəsinə çatdığı vurğulanıb. İkitərəfli və çoxtərəfli əsasda sıx əməkdaşlıq edən Azərbaycan və Macarıstanın təhsil və səhiyyə sahəsindəki əlaqələrindən də söz açılıb.

Səfər zamanı ATU-nun rəhbərliyi Budapeşt Semmelveis Universitetinə baş çəkib. Universitetin rektoru Bela Merkely ilə görüşdə iki universitet arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, müştərək fəaliyyət, qarşıdakı dövr üçün birgə layihələrə dair planlar müzakirə edilib.



Sonra ATU-nun nümayəndə heyəti Semmelveis Universitetinin departament müdiri Attila Szijarto və beynəlxalq əlaqələr üzrə direktor Marsel Popun müşayiəti ilə ali məktəbin iclas zalı, mühazirə otaqları ilə tanış olub.

ATU-nun rektoru, professor G.Gəraybəyli universitetin və klinikanın qonaq kitabına ürək sözlərini yazıb.

Daha sonra universitetin Psixiatriya Klinikası ziyarət olunub. Direktor Janos Rethelyi burada dünyanın hər yerindən olan tələbələrin tədrisi üçün yaradılan şəraitlə qonaqları tanış edib, klinikanın fəaliyyəti haqqında ətraflı məlumat verib.

Professor G.Gəraybəyli və dosent Z.Musabəyov klinikanın mühazirə zalları, tədris əməliyyatxanalarına da baş çəkiblər.

Qeyd edək ki, ATU ilə Semmelveis Universiteti arasında 2016-cı ildə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Səfər çərçivəsində Peç Universitetinin rektoru, professor Attila Miseta ilə də görüş baş tutub. Görüşdə qarşılıqlı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin ATU-nun rəhbərliyi Milli Virusoloji Laboratoriyaya baş çəkib, Psixatriya və Psixoterapiya Klinikasında olub.

# Qazi Universitetinin nümayəndə heyəti ATU-da olub

**Türkiyənin Qazi Universitetinin nümayəndə heyətinin Azərbaycan Tibb Universitetinə işgüzar səfəri baş tutub. Səfər zamanı nümayəndə heyəti üzvlərinin universitet rəhbərliyi ilə görüşü keçirilib.**



Görüşdə qarşılıqlı əməkdaşlığın dair əsas məsələlər, o cümlədən yeni açılan "Tibb bacısı işi" və "Fizioterapiya və tibbi reabilitasiya" ixtisasları üzrə ikili diplom proqramlarının müzakirəsi aparılıb. ATU-nun rektoru, professor Gəray Gəraybəyli iki universitet arasında mövcud olan layihələr, onlayn dərslərin uğurlu təşkili, qarşıya qoyulan hədəflər və planlar barədə fikirlərini bölüşüb. Qazi Universitetinin Sağlamlıq elmləri fakültəsinin dekanı, professor Bülent Elbasan ATU ilə əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək birgə proqramların sayı və əhatəsinin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra nümayəndə heyətinin üzvləri Tədris Cərrahiyyə Klinikasının rəhbərliyi ilə görüşüblər. Klinikada Qazi Universitetinin mütəxəssisləri tərəfindən keçirilən tədbirdə "Tibb bacısı işi", "Fizioterapiya və tibbi reabilitasiya" ixtisasları üzrə təqdimat baş tutub. Türkiyəli qonaqlar klinikada yeni ixtisasların tədrisi ilə bağlı yaradılan şəraitlə tanış olublar, yeni yaradılan şöbələrin işini yüksək qiymətləndiriblər.

Qeyd edək ki, qonaqlar Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna da baş çəkiblər.

**Tədris Terapevtik Klinikada 17 İyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib. Klinikanın direktoru, professor Surxay Musayev çıxış edərək, rəhbərlik etdiyi müəssisənin əməkdaşlarının timsalında bütün tibb işçilərini əlamətdar gün münasibətilə təbrik edib, onlara cansağlığı və tutduqları bu şərəfli yolda uğurlar arzulayıb.**




# Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib

Professor S.Musayev bildirib ki, 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyi təsis olunub. Bunu əsas götürərək ümummilli lider Heydər Əliyev həmin günün Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunması haqda

2001-ci il iyunun 4-də sərəncam imzalayıb. O daha sonra ölkəmizdə səhiyyənin inkişafından, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahəyə göstərdikləri diqqət və qayğıdan danışıb, qeyd edib ki, son 15 ildə Azərbaycan Tibb Universitetində 4 böyük klinikanın - Onkoloji, Stomatoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarının yaradılması da buna bariz nümunədir.

Tədbirin sonunda klinika əməkdaşlarına Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və Tədris Terapevtik Klinikanın direktoru tərəfindən imzalanmış fəxri fərman və təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, həmin gün Nəsimi rayon İcra Hakimiyyətində də bu münasibətilə tədbir keçirilib. Tədbirdə Nəsimi rayonu ərazisində yerləşən səhiyyə müəssisələrinin nümayəndələri iştirak ediblər. Tədbirdə COVID-19 pandemiyası ilə mübarizədə və 44 günlük Vətən müharibəsində Azərbaycan həkimlərinin böyük fədakarlığı xüsusi vurğulanıb.

# Əməkdaşlığın genişlənməsinə xidmət edən tədbir

**İsrail tibb günündə aktual mövzularda məruzələr təqdim edilib**

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasında İsrail tibb günü keçirilib. Tədbirdə İsraildən olan tibb mütəxəssisləri, azərbaycanlı həkimlər, tələbə və rezidentlər iştirak ediblər.**



Açılış nitqi ilə çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov tədbir iştirakçılarına ali məktəbin fəaliyyəti, əldə olunan nailiyyətlər, tədris sistemi haqqında ətraflı məlumat verib. O, əməkdaşlığın genişlənməsinə xidmət edən belə tədbirlərin əhəmiyyətini vurğulayaraq, bu təşəbbüslərin qarşılıqlı təcrübə mübadiləsi baxımından da önəm kəsb etdiyini qeyd edib.

İsrailin Azərbaycandakı səfiri Corc Dik çıxışında ölkəsi ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişafından söz açıb. Bu tədbiri də ölkələrarası əlaqələrin inkişafına töhfə kimi qiymətləndirib. Səfir tolerant ölkə olan Azərbaycanda yəhudilərin heç bir problemlə üzləşmədiklərini vurğulayıb.

Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev də belə tədbirlərin gənc həkimlərin bilik və bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləyib. Çıxış edənlər İsrail tibb gününün təşkilinə görə Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkürlərini bildiriblər.

İsraildən gəlmiş mütəxəssislər ATU-nun rezidentləri üçün mühazirələrlə çıxış ediblər. Seminardan sonra nümayəndə heyəti ilə ATU-nun kafedralarında görüşlər keçirilib.

# Naxçıvanda Birinci Beynəlxalq Tibbi Forum keçirilib

## Professor Gəray Gəraybəyli: Ulu öndərin vətənində unikal tərkibə malik forumda iştirak etmək qürurvericidir

**İyunun 18-21-də Naxçıvanda Birinci Beynəlxalq Tibbi Forum keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov forumun açılışında iştirak edib.**






Əvvəlcə Ali Məclisin sədri Vasif Talıbov, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev, Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin fəxri sədri Cavid Avcı, Türkiyənin Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl, Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı və forum iştirakçıları əczaçılıq məhsullarının və tibbi avadanlıqların sərgisinə baxıblar. Bildirilib ki, foruma 20-dən artıq tədris və tibbi ləvazimat, dərman və qida məhsulları istehsalı və satışı həyata keçirən şirkət qatılıb.

Tədbirdə çıxış edən V.Talıbov forumun iştirakçılarını qədim Azərbaycan torpağı Naxçıvanda salamlayaraq, bildirib ki, sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu var: "Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilib. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlığı səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə bu məsələni diqqətdə saxlayıb, Azərbaycanda səhiyyə quruculuğu geniş vüsət alıb. Ulu öndərin əsasını qoyduğu səhiyyə islahatları ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Ali Məclisin sədri deyib ki, Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlamlığının qorunması və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi islahatların başlıca istiqamətidir. Müstəqillik illərində muxtar respublikada 200-dən artıq səhiyyə müəssisəsi tikilib, ən son tibbi avadanlıqlar quraşdırılıb. Müasir tələblər səviyyəsində qurulan xəstəxanalar muxtar respublika səhiyyəsini yeni inkişaf mərhələsinə çıxarıb. Hazırda Naxçıvanda 28 şəhər, rayon, qəsəbə və kənd sahə xəstəxanası, mərkəz və dispanser, birlik, eləcə də 85 həkim ambulatoriyası, 94 feldşer-mama və tibb məntəqəsi vasitəsilə əhaliyə hərtərəfli tibbi xidmət göstərilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin də fəaliyyəti təmin edilib. Bütün bunların nəticəsidir ki, muxtar respublikada insan sağlamlığının başlıca şərti olan sanitar-epidemioloji vəziyyət sabitdir.

"Səhiyyənin inkişafı müasir infrastruktur təminatı ilə yanaşı, həm də ixtisaslı kadr hazırlığından başlayır", - deyən V.Talıbov bildirib ki, muxtar respublikada bu iş paralel şəkildə həyata keçirilir, orta ixtisas və ali təhsilli tibbi kadr hazırlığına böyük əhəmiyyət verilir. 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin fəaliyyətə başlaması və ötən dövrdə keçdiyi böyük yol muxtar respublikada ixtisaslı həkim hazırlığı sahəsində mühüm mərhələdir. Naxçıvanda icbari tibbi sığortaya keçid də əhalinin keyfiyyətli tibbi xidmətlərlə təminatına töhfə verib, bütün yaşayış məntəqələrində bu proses uğurla başa çatdırılıb.

Ali Məclisin sədri Birinci Beynəlxalq Tibbi Forumun dünyanın mötəbər universitetlərini təmsil edən tanınmış həkim və mütəxəssislər arasında birgə elmi tədqiqatların və fikir mübadiləsinin aparılmasında faydalı olacağına inamını ifadə edib, forumun işinə uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək deyib ki, tibbi forumun muxtar respublikada keçirilməsi uzun illər ərzində qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir. Bu müddətdə NDU-da təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilib. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə universitetin dünyanın ən yaxşı ali məktəbləri sırasında yer alması qürurverici nailiyyətdir. 25 tələbə ilə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində hazırda 1284 tələbə təhsil alır. Bildirilib ki, dünyanın 7 ölkəsindən 350-dən artıq elm adamının qatıldığı forumda 700-dən çox iştirakçı təmsil olunur. Azərbaycan Tibb Universitetinin və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə xəstələrin konsultativ müayinə, əməliyyat və müalicələrinin keçirilməsi planlaşdırılıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli deyib ki, qalib xalqın nümayəndələri kimi ulu öndər Heydər Əliyevin vətəni Naxçıvanda unikal tərkibə malik forumda iştirak etmək qürurvericidir. Bir əsrə yaxın yaşı olan ATU-nun inkişafında, maddi-texniki bazanın qurulmasında, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında ümummilli liderin rolu danılmazdır. Bu gün ulu öndərin siyasəti ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Universitetimizin kafedra və bölmələrinin müasir avadanlıqlarla təchiz edilməsi ali tibb təhsilinə ölkə prezidentinin qayğısının bariz nümunəsidir. Hazırda ATU bölgəmizin qabaqcıl tədris müəssisələrindən biridir. Universitetimiz dünyanın 20 ölkəsindən 80-ə yaxın elm və təhsil qurumları ilə hərtərəfli əməkdaşlıq edir. Həmçinin Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universiteti arasında anlaşma memorandumu imzalanıb". Rektor qeyd edib ki, forum iştirakçıları və mövzuların müxtəlifliyi təbabətin aktual problemlərinin həlli yolunda yüksək səviyyədə müzakirələrin aparılmasına imkan yaradacaq.

Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev çıxış edərək bildirib ki, səhiyyə sistemində islahatlar ölkəmizin stabil və sosial infrastrukturunun inkişafının qlobal strateji proqramının tərkib hissəsidir. Bu tədbirlər ümummilli lider Heydər Əliyev tərəfindən başladılıb, onun təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrində tibb müəssisələri, xəstəxanalar tikilib istifadəyə verilib. Ulu öndər milli tibbi kadrların hazırlanmasına da böyük önəm verirdi. Onun təşəbbüsü ilə həkimlərin Avropada, Amerikada, Rusiyada, Türkiyədə hazırlanması üzrə dövlət proqramı işlənib. Bu siyasəti ölkə prezidenti İlham Əliyev uğurla davam etdirir.

Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin fəxri sədri Cavid Avcı təmsil etdiyi dərnəyin fəaliyyəti barədə danışıb, beynəlxalq səviyyədə həyata keçirdikləri layihələrdən bəhs edib. Qeyd olunub ki, Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyi 20 ildən artıqdır Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq edir.

Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyasının sədri Müşviq Həsənov forumun keçirilməsində məqsədin Azərbaycanın tibb alimləri, həkim-mütəxəssisləri ilə Türkiyə, Özbəkistan, Qazaxıstan, İran və Almaniyadan olan elm adamları arasında fikir mübadiləsinə şərait yaratmaq və birgə müzakirələr aparmaqdan ibarət olduğunu bildirib. Qeyd olunub ki, forumda gələcəkdə həkim olmaq arzusunda olan şagird və tələbələr də iştirak edir ki, bu da kadr hazırlığına mühüm töhfədir.

Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl, Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı və digər çıxış edənlər forumun əhəmiyyətini vurğulayıblar.

Sonra Naxçıvanın tanıtım videoçarxı nümayiş olunub.

Forum bədii hissə ilə davam edib, Xalq artistləri Mənsum İbrahimov və Samir Cəfərov, Əməkdar artist Nuriyyə Hüseynova və Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında konsert proqramı təqdim edilib.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti və Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə Azərbaycan, ingilis və rus dillərində olmaqla 3 dildə keçirilən forum Azərbaycan tibb tarixində ilk belə tədbirdir.

# ATU ilə NDU arasında memorandum imzalanıb

## İki universitetin əməkdaşlıq istiqamətləri genişləndirilir



Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olublar. Ali təhsil ocağında ilk dəfədir keçirilən I Beynəlxalq Tibbi Forum çərçivəsində universitetin Diplomatiya kabinəsində ikitərəfli görüş baş tutub.

NDU-nun rektoru Elbrus İsayev qonaqları salamlayaraq, hər iki ali təhsil ocağının birgə təşkilatçılığı ilə keçirilən forumun işinə uğurlar arzulayıb. Universitetin maddi-texniki bazası, ixtisasları, beynəlxalq əlaqələrinə toxunan rektor ali təhsil ocağında qurulan Texnopark və onun fəaliyyət sahələri haqda danışıb.

Rektor universitetdə Azərbaycan və ingilis dilində tədrisi həyata keçirilən ixtisaslar haqda ətraflı məlumat verib. Regionda ingilis dilinin fəaliyyətinə xüsusi dəstək məqsədilə ali təhsil ocağında qurulan IELTS qeydiyyat və imtahan mərkəzinin üstünlükləri və muxtar respublika təhsil sistemi üçün faydaları qeyd olunub, NDU-da 23 ildir fəaliyyət göstərən Tibb fakültəsinin muxtar respublika səhiyyəsinə verdiyi töhfələr diqqətə çatdırılıb.

Bildirilib ki, muxtar respublika səhiyyə sisteminin kadr təminatının 80 faizdən çoxu məhz universitetin tibb məzunları hesabına həyata keçirilir. Bildirilib ki, universitetdə 32 ixtisas üzrə rezidentura təhsili verilir. Rektor qeyd edib ki, fakültə yarandığı dövrdən qardaş Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələri qurulub, hər il müəllim və tələbələr həmin universitetlərdə təcrübə keçmək imkanı əldə edirlər.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilk dəfə NDU-da olmaqdan məmnunluğunu bildirib. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaranması ilə başlanan əlaqələrdən danışan rektor, hər iki universitet arasında uzun illərdir səmərəli əməkdaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayıb. ATU-nun tarixinin 1930-cu ilə gedib çıxdığını söyləyən professor G.Gəraybəyli universitetdə mövcud olan fakültələr haqda məlumat verib, Hərbi tibb fakültəsini xüsusi qeyd edib. Diqqətə çatdırılıb ki, xarici ölkələrdən professor-müəllim heyətinin universitetə dəvət olunması tibb təhsilində beynəlxalq təcrübənin mübadiləsi baxımından çox əhəmiyyətlidir. Rektor ATU-da 6 dissertasiya şurasının fəaliyyət göstərdiyini diqqətə çatdırıb. NDU-ya gələcəkdə bu istiqamətdə dəstək göstərilməsinin zəruriliyi qeyd olunub.

Daha sonra iki universitet arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olunub və memorandum imzalanıb. Görüşdə təhsil prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması, birgə elmi tədqiqatlar aparılması, müəllim və tələbələrin, eləcə də texniki materialların mübadiləsinin həyata keçirilməsi, birgə elmi yığıncaqlar təşkil olunması, prioritet innovativ layihələrin birlikdə işlənib hazırlanması kimi məsələlərə diqqət ayrılıb.

Sonda hədiyyələr təqdim edilib, xatirə fotosu çəkdirilib. Professor Gəray Gəraybəyli universitetin xatirə kitabına öz ürək sözlərini yazıb.

# Buraxılış Dövlət İmtahanları yüksək səviyyədə keçirilib

**İyunun 28-də Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının 2021/2022-ci tədris ilində sonuncu iclası keçirilib. Tədbiri giriş nitqi ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, bu tədris ili üzrə Dövlət Attestasiya Komissiyası artıq öz işini başa çatdırıb. Buraxılış Dövlət İmtahanları Əsasnaməyə uyğun olaraq keçirilib və nəzərdə tutulan qaydalara tam əməl edilib. Səhiyyə nazirinin təsdiq etdiyi əmrə əsasən, Dövlət Attestasiya Komissiyasının fakültələr üzrə sədrləri və üzvləri Buraxılış Dövlət İmtahanları zamanı apardıqları işin nəticələri haqqında hesabat vermək üçün Böyük Elmi Şuranın iclasına dəvət olunublar.**

## Professor Gəray Gəraybəyli: Universitet üzrə ümumi göstəricilər qənaətbəxşdir, komissiya üzvləri və tələbələrimiz yekun nəticələrdən razı qalıblar



Bundan sonra komissiyanın fakültələr üzrə sədrlərinin hesabatları dinlənilib və gənc mütəxəssislərin hazırlanması işinin yaxşılaşdırılmasında universitet kollektivinin vəzifələri müzakirə olunub.

Dövlət Attestasiya Komissiyasının I Müalicə-profilaktika fakültəsi üzrə sədri - Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru, t.e.d., professor Cəmilə Qurbanova, II Müalicə-profilaktika fakültəsi üzrə sədr - Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, t.e.d. Fuad Quliyev, Stomatologiya fakültəsi üzrə sədr - Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, t.ü.f.d. Lalə Quliyeva, İctimai səhiyyə fakültəsi üzrə sədr - V.Axundov adına Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun İnsan helmintozları və bağırsaq protozoozları laboratoriyasının müdiri, t.e.d. Akif Salehov, Əczaçılıq fakültəsində bakalavr mərhələsi üzrə sədr - Səhiyyə Nazirliyinin Respublika Diaqnostika Mərkəzinin Təchizat şöbəsinin baş mütəxəssisi, b.ü.f.d. Rüstəm Rüstəmbəyov hesabat məruzəsi ilə çıxış ediblər. Bundan başqa, Hərbi tibb fakültəsi üzrə sədr - Müdafiə Nazirliyi Kadrlar idarəsinin rəisi, general-mayor Elçin Xəlilov üzrlü səbəbdən iclasda iştirak edə bilmədiyi üçün nazirliyin Hərbi təhsil idarəsinin Tədris şöbəsinin rəisi, polkovnik Haqverdi Haqverdiyev Buraxılış Dövlət İmtahanları haqqında ətraflı məlumat verib.

Fakültələr üzrə sədrlər hesabat məruzələrində qeyd ediblər ki, bir sıra ixtisaslar üzrə Əczaçılıq fakültəsində buraxılış işinin müdafiəsi, I və II Müalicə-profilaktika, İctimai səhiyyə, Stomatologiya və Hərbi tibb fakültələrində Yekun Dövlət Attestasiyası mövcud Əsasnaməyə uyğun olaraq problemsiz və şəffaf şəkildə aparılıb.

Bildirilib ki, bu il buraxılış imtahanları yüksək səviyyədə baş tutub və tələbələr obyektivlik şəraitində yüksək bilik nümayiş etdiriblər. İmtahanlar üçün yaradılan şəraitə görə universitet rəhbərliyinə, şəxsən professor Gəray Gəraybəyliyə minnətdarlıq edən çıxışçılar, eyni zamanda fakültə dekanlarının da prosesdəki fəaliyyətini yüksək qiymətləndiriblər. Onlar imtahanlar zamanı heç bir narazılığın baş vermədiyini diqqətə çatdırıblar və gələcəkdə imtahanların daha da mütəşəkkil keçirilməsi üçün öz təklif və rəylərini dilə gətiriblər.

Hesabat çıxışlarına yekun vuran universitetin rektoru, professor Gəray Gəraybəyli fakültələr üzrə sədrlərə imtahanları uğurla başa çatdırdıqları üçün təşəkkür edib: "Həqiqətən də builki Buraxılış Dövlət İmtahanları yüksək səviyyədə keçirildi. Universitet üzrə ümumi göstəricilər qənaətbəxşdir. Tələbələrin istər praktiki, istərsə də nəzəri hazırlıqları yaxşı idi. Məhz bunun nəticəsidir ki, imtahan zamanı elə bir neqativ və xoşagəlməz hal baş verməyib. Həm imtahan komissiyasının üzvləri, həm də tələbələrimiz yekun nəticələrdən razı qalıblar. Burada sədrlər öz çıxışlarında bir sıra təkliflər səsləndirdilər. Bildiyiniz kimi, bizdə hər il tədris işinin müasir standartlara uyğun yenilənməsi istiqamətində islahatlar aparılır. Çalışacağıq ki, növbəti illərdə də qarşıda duran həlli vacib məsələləri həyata keçirək. Bu zaman irəli sürülmüş təkliflər də nəzərə alınacaq".

Bundan sonra universitetin Tədris hissə müdiri, dosent Kamandar Yaqubovun təqdim etdiyi 2022/2023-cü tədris ili üzrə tədris planı və ATU-nun Elmi katibi, professor Nazim Pənahovun 2022/2023-cü il üzrə təqdim etdiyi iş planı toplantı iştirakçılarının diqqətinə çatdırılıb və hər iki plan Şura üzvləri tərəfindən təsdiqlənib.

Toplantıda daha sonra müxtəlif məsələlərin müzakirəsinə başlanılıb. 2022/2023-cü tədris ilindən etibarən "Ümumi və toksikoloji kimya" kafedrasının adını dəyişdirilərək, "Əczaçılıq toksikologiyası və kimya" adlandırılması



şura üzvləri tərəfindən səsə qoyularaq təsdiq olunub. Bundan başqa, t.e.d, professor Amaliya Əyyubovanın II Uşaq xəstəlikləri kafedrasının, t.e.d, professor Nərgiz Hüseynovanın isə Yoluxucu xəstəliklər kafedrasının məsləhətçi-professoru vəzifəsinə təyin edilməsinə razılıq verən Elmi Şura, Ümumi və toksikoloji kimya kafedrasının məsləhətçi-professoru, ə.e.d. Qayıbverdi İskəndərovun yenidən həmin vəzifəyə seçilməsini təsdiqləyib. Şura üzvləri Epidemiologiya kafedrasının əyani doktorantları Rzayev Rauf Sarif oğlu və Babaxanov İsbi Salman oğlunun müraciətlərinə də münasibət bildirib və onların təhsillərini qiyabi davam etdirmələrinə səs verib.

Sonda universitetin kollektivinə mənalı istirahət arzulayan professor G.Gəraybəyli bildirib ki, bu iclas Elmi Şuranın 2021/2022-ci tədris ilində son iclası olmaqla yanaşı, həm də son toplantısıdır. Çünki indiki Şura üzvlərinin beş illik müddəti başa çatır. Yeni tədris ilində həm Böyük Elmi Şuranın, həm də fakültə elmi şuralarının yeni tərkibi seçiləcək.

Dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləyən Böyük Elmi Şura öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

---

**Tibbi mikrobiologiya və immunologiya kafedrasında 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**



# Silahlı Qüvvələr Günü qələbə ovqatı ilə qeyd olunub

Bundan sonra kafedranın müdiri, professor Həqiqət Qədirova çıxış edərək, igid hərbçilərimizin Vətən müharibəsində bizə xüsusi qələbə ovqatı, qürur hissi yaşatdıqlarını vurğulayıb. Bu möhtəşəm qələbənin Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və müzəffər ordumuzun rəşadəti sayəsində mümkün olduğunu deyib.

Tədbirə qonaq kimi dəvət olunan Qarabağ qazisi, tibb xidməti mayoru, Hərbi tibb fakültəsinin əməkdaşı Hamlet Hüseynov bu əlamətdar günün tarixi keçmişə söykəndiyini, 104 il bundan qabaq ilk Azərbaycan diviziyasının yaradılması ilə milli ordumuzun əsasının qoyulduğunu diqqətə çatdırıb. Bildirib ki, son iki ildə bu tarixi günü xüsusi təmtəraqla qeyd edirik: "Nəinki ölkə daxilində, ölkə xaricində də qalib bir ölkənin vətəndaşları olduğumuzu qürurla söyləyirik. Onu da unutmuruq ki, qələbəmiz şəhidlərimizin, hərbiçilərimizin qanı-canı hesabına başa gəlib".

O, tarixi qələbəmizin qazanılmasında tibb işçilərinin, Hərbi tibb fakültəsinin məzunlarının xüsusi fədakarlığından da söz açıb. Xatırladıb ki, yaralını döyüş meydanından çıxarmaq həkimin deyil, sanitar təlimatçının işidir: "Amma döyüş meydanında olan bir həkim kimi deyə bilərəm ki, ordada hamı birləşmişdi. Vəzifəsindən asılı olmayaraq hər kəs daha artığını etməyə can atırdı. Yaralananlar döyüşdən çıxmaq istəmirdi. Bunun necə bir hiss olduğunu mən özüm yaralanandan sonra anladım. Biz 44 gün ərzində böyük qalibiyyət sevinci yaşadıq. Son 200 ildə ilk dəfə idi ki, işğal olunmuş tarixi torpaqlarımızı özümüzə qaytardıq".

Kafedranın əməkdaşları – qazi anası, professor Gülər Seyidova, dosentlər Səidə Zeynalova, Mətanət Novruzova və baş müəllim Səidə Hacıyeva da Azərbaycan ordusunun dünyanın ən güclü orduları arasında yer almasından və Vətən müharibəsindəki parlaq Qələbəmizdən fəxarətlə danışıblar.

Tədbirin sonunda "Görünməyən qəhrəmanlar. Hərbi həkimlər" sənədli filmi nümayiş etdirilib.

# Kafedra müdiri Türkiyədə beynəlxalq simpoziuma qatılıb

**İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev iyunun 7-dən 10-dək Türkiyə Cümhuriyyətinin Niğde şəhərində keçirilən IX Beynəlxalq türk dünyası araşdırmaları simpoziumunda iştirak edib.**



O, "Türkiyə və Azərbaycanda narkotiklərlə mübarizə haqqında" adlı məruzəsində göstərib ki, narkotik maddələrdən ilk istifadə 4 min il əvvələ təsadüf edir və bu günümüzdə də yayılmaqdadır: "Bu gün dünyada, o cümlədən Türkiyə və Azərbaycanda bu bəlanın qarşısını almaq məqsədilə tədbirlər həyata keçirilir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının ərazisinin 20 faizi ermənilərin işğalı altında olduğu zamanlarda nəzarətdən kənarda qalan bu bölgədə narkomaniya tüğyan edirdi. Onlar narkotiklərin satışından böyük vəsait qazanırdılar. İşğal dövründə bu bölgə həm də narkotik maddələrin trafiki rolunu oynayırdı.

Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsindəki qəhrəmanlığı sayəsində torpaqlarımız işğaldan azad edildi. Beləliklə də torpaqlarımızda narkotik becərilməsinə, istehsalına, satışına və dövriyyəsinə birdəfəlik son qoyuldu, bölgədə quruculuq işləri başladı".

Q.Əliyev çıxışında Türkiyə və Azərbaycanda tarixilik baxımından bu problemin araşdırılması, günümüzdə "ağ ölüm" mənzərəsi və ona qarşı mübarizənin əhəmiyyətini dəyərləndirib. Qeyd edib ki, başqa dövlətlərlə müqayisədə Türkiyə və Azərbaycanda narkotik maddələr problemi yüksək səviyyədə olmasa da, bu sahədə hər iki ölkə geniş tədbirlər planı həyata keçirir, qanunvericiliyin təkmilləşdirilməsinə diqqəti artırılır.

Professorun simpoziumdakı məruzəsi bəyənilib və Niğde Universitetinin rektoru, professor dr. Hasan Uslu tərəfindən ona sertifikat verilib. Sonra Qoşqar Əliyev bölümün rəhbəri kimi iclası aparıb, məruzəçilərə sertifikatlar təqdim edib.

# Azərbaycanda ilk dəfə

## “Üzün inkişafı, quruluş xüsusiyyətləri və disseksiyası” mövzusunda elmi-təcrübi seminar keçirilib

**İyunun 17-də ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasında ölkəmizdə ilk dəfə olaraq “Üzün inkişafı, quruluş xüsusiyyətləri və disseksiyası” mövzusunda elmi-təcrübi seminar keçirilib.**





Seminarı giriş nitqi ilə açan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin sədri, Rusiya Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, professor Vaqif Şadlinski tədbir iştirakçılarını salamlayıb. O, İnsan anatomiyası və tibbi terminologiya kafedrasına uzun illər rəhbərlik etdiyini və bu müddətdə kafedrada əldə olunan nailiyyətləri diqqətə çatdırıb. Anatomiya elminin tibb təhsilindəki əvəzsiz rolunu önə çəkən akademik vurğulayıb ki, dünyada məşhur olan bir çox görkəmli mütəxəssislər məhz bu kafedranın yetirmələridir.

Tədbirin burada keçirilməsinin təsadüfi olmadığını deyən V.Şadlinski bildirib ki, qeyd olunan mövzu əhəmiyyətinə görə çox aktualdır: “Tibb elmini anatomiyasız təsəvvür etmək mümkün deyil. Bu elm tibbin əsası sayılır və bəzi ölkələrdə fiziologiya ilə birlikdə tədris olunsa da, ölkəmizdə ayrıca elm sahəsi kimi fəaliyyət göstərir. Anatomiya insan orqanları, toxumaları, hüceyrələrinin quruluşunu və formasını öyrənən elmdir. Əgər kimsə yaxşı plastik cərrah və yaxud həkim-kosmetoloq olmaq istəyirsə, anatomiyanı mükəmməl öyrənməlidir”.

V.Şadlinski çıxışının sonunda Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimovu yubileyi münasibətilə təbrik edib və ona Nəsimi rayon Ağsaqqallar Şurasının təşəkkürnaməsini təqdim edib.

Sonra mövzuya dair çıxışlara yer verilib. “Üzün müxtəlif deformasiyalarının estetik və rekonstruktiv əməliyyatları” mövzusunda çıxış edən Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, professor Vaqif Qələndərli indiyədək apardığı mürəkkəb dərəcəli plastik əməliyyatlar barədə məlumat verib və bu sahədə qazandığı nailiyyətləri, əldə etdiyi təcrübəni tədbir iştirakçıları ilə bölüşüb. O bildirib ki, bəzən travmalar nəticəsində insanda elə qüsurlar əmələ gəlir ki, bu, kompleks yaradır və gündəlik həyat tərzinə mənfi təsir göstərir. Lakin belə insanlar əməliyyatdan sonra özlərini daha rahat hiss edirlər.

Estetik əməliyyatlar içərisində birinci yerdə burun rinoplastikasının dayandığını söyləyən mütəxəssis bildirib ki, bu məqsədlə ona ən çox qadınlar müraciət edir. Həkim belə əməliyyatlar üçün ideal yaşın 18-dən 60-dək olduğunu deyib və yalnız gözəllik xatirinə vaxtından əvvəl əməliyyat etdirməyə ehtiyac görmədiyini vurğulayıb.

Bundan sonra İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev “Üzün İnkişafı. Üz əzələlərinin formalaşması”, “Aesthetic & Wellness World Academy” və “Aesthetic & Wellness Association” ictimai birliyinin təsisçisi Həcər Cəfərova isə “Kosmetologiyanın inkişafı və əhəmiyyəti” mövzularında çıxış ediblər.

Məruzələrdə qeyd olunub ki, bu gün estetik kosmetologiyanın müəyyən aspektlərə görə cərrahi əməliyyatlarla rəqabət apara bildiyini söyləmək mümkündür. “Disseksiya kadavrası” kursu tətbiqi anatomiya sahəsində yeni biliklər əldə etməyə, inyeksiya texnikasını təkmilləşdirməyə, fəsadların mexanizmlərini və onların qarşısının alınması üsullarını başa düşməyə imkan verən praktiki öyrənmə yanaşmasıdır. Xaricdə, xüsusən də Avropa və Türkiyədə belə kurslar tez-tez təşkil olunur.

Sonra kadavra kurs mütəxəssisi, həkim-stomatoloq, inyeksion kosmetologiya üzrə beynəlxalq təlimçi Səbuhi Əbilovun kursu keçirilib. Onun sözlərinə görə, kursda iştirak edən hər bir mütəxəssis öz peşə fəaliyyətində yüksək nəticələr əldə etmək imkanı qazanır: “Kursun iştirakçıları üz anatomiyasının quruluşunu, üzün qan damarlarının mürəkkəb quruluşunu, tənəffüs yollarının quruluşunu birbaşa öyrənir. Siz, əlbəttə bütün bunları kitablardan, video yayımlardan öyrənə bilərsiniz, lakin bu, heç bir halda praktik təcrübənizi əvəz edə bilməz. Müasir təhsil sistemində belə bir anlayış var ki, insan siması ilə, üz ilə işləyən mütəxəssislər mütləq şəkildə praktik təcrübə qazanmalıdırlar”.

Sonda tədbir iştirakçıları “Anatomiya muzeyinə” ekskursiya edib və meyit üzərində disseksiya nümayiş olunub.

# Alimlərimiz beynəlxalq layihədə iştirak edib

**Böyük Britaniyanın ən qabaqcıl nəşriyyatlarından olan IntechOpen nəşriyyatının təşkilatçılığı ilə beynəlxalq ekspert qrupu tərəfindən ingilis dilində “Lymphoma” adlı kitab hazırlanıb.**






Nəşriyyatın xahişi ilə kitabın “Primary gastrointestinal lymphoma” fəsli ATU-nun Onkologiya kafedrasının professoru t.e.d. Ramiz Bayramov (həmin kafedranın dosenti Ramilə Abdullayevanın həmmüəllifliyi ilə) tərəfindən təqdim olunub. 40 səhifə həcmində olan fəsildə birincili mədə-bağırsaq limfomasının bütün aspektləri onkologiya elminin bu istiqamətdəki müasir nailiyyətləri nəzərə alınmaqla və müəlliflərin şəxsi təcrübələri də təhlil edilməklə hərtərəfli işıqlandırılıb. Alimlərimizin bu beynəlxalq layihədə iştirakı ATU-nun növbəti uğurlarından biridir.

# ATU Təhsil İdarəetməsi Forumunda təmsil olunub

Türkiyənin İzmir şəhərində EYUDER təşkilatının və 9 Eylül Universitetinin ev sahibliyi ilə XIII EYFOR - Təhsil İdarəetməsi Forumunun növbəti konfransı keçirilib.




ATU-nun İctimai fənlər kafedrasının dosenti Gülnarə Səfərova həmin konfransda iştirak edib. Onun “Azərbaycanda tibb təhsili alan tələbələrə tədris olunan fəlsəfə fənninin özəllikləri” mövzusunda çıxışı maraqla qarşılanıb.

Toplantı çərçivəsində Azərbaycanın Ankaradakı səfirliyinin təhsil müşaviri, dosent Nəcibə Nəsibova ilə görüş keçirilib. Konfransda müxtəlif ölkələrdən olan mütəxəssislərin çıxışları dinlənilib, müasir təhsil problemləri və tədris metodlarının təkmilləşdirilməsi barədə geniş müzakirələr aparılıb.

Məlumat üçün bildirək ki, EYUDER Ankarada yerləşir və Türkiyə Cümhuriyyətinin Təhsil Nazirliyi ilə birgə fəaliyyət göstərir. Təhsilin İdarəediciləri və Uzmanları Assosiasiyasının təşkilatçılığı ilə keçirilən Təhsil İdarəetmə Forumu hər il Türkiyənin müxtəlif bölgələrində təşkil edilir.

# “Əldə etdiyimiz nəticələr ürəkaçandır”

## Aygün Rüstəmxanlı: TCK-nın Neonatologiya şöbəsi geniş profildə çalışan reanimasiya və intensiv terapiya bölməsidir

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının Neonatologiya şöbəsi ən müasir avadanlıqları və peşəkar mütəxəssisləri ilə ölkə əhalisinə keyfiyyətli tibbi xidmət göstərir. Şöbədə yaradılan şərait, işin təşkili və burada mövcud olan daxili nizam-intizam qaydaları barədə şöbənin müdiri Aygün Rüstəmxanlı məlumat verib.**



Onun sözlərinə görə, burada tibbi xidmətin keyfiyyəti - personalın fəaliyyətinin təşkili, təminatın tamlığı və idarəçiliyin düzgün qurulmasının vəhdətindən asılıdır. Əgər işə bu şəkildə yanaşılarsa, müsbət nəticələr əldə olunar: “Yenidoğulmuşların reanimasiya və intensiv terapiyası şöbəsi əslində tək ayrıca bir bölmə kimi deyil, perinatal xidmət mərkəzinin aparıcı hissəsi kimi qəbul edilməlidir. Bu yanaşmaya əsaslanaraq tam məsuliyyəti ilə bildirmək istəyirəm ki, rəhbərlik etdiyim şöbə üçüncü səviyyəli neonatal xidmətə müvafiq geniş profildə çalışan reanimasiya və intensiv terapiya bölməsidir. Qəbul etdiyimiz xəstələr - vaxtından erkən doğum riski ilə davamlı olaraq patoloji şöbədə müalicə almış, ekstremal azçəkili körpələrdən tutmuş, hamiləliyin erkən və ya gec dönəmlərində bətndaxili diaqnoz qoyulmaqla müxtəlif inkişaf qüsurları, patoloji hallarla doğulan və eləcə də ən müxtəlif xəstəliklərlə qarşılaşa biləcəyimiz körpələrdir. Bizim perinatal mərkəzin fərqli cəhəti həm də ondan ibarətdir ki, burada dölə həm fetal-anabətni müəyyən cərrahi müdaxilə edilə biləcək ginekoloji xidmət, həm də postnatal - doğuşdan sonra cərrahi müdaxilə olunacaq yeni doğulmuşun cərrahiyyəsi xidməti mövcuddur. Belə körpələr mütləq bu xidmətlərin davam etməsi və tamamlanması üçün üçüncü səviyyəli reanimasiya şöbəsində dünyaya gəlməlidir”.

Təcrübəsinə əsaslanan Aygün xanım deyir ki, ana və bətnindəki körpənin qan qrupu arasında öncəki hamiləlikdən qalma anticisimciklərin hazırkı dölün qanını erkən parçalaması həyati təhlükə yarada bilər: “Bu zaman dölün ana bətni dövründəki ömrü qismən uzadılsa da, körpənin sonrakı taleyi yenidoğulmuşlar reanimasiyası və intensiv terapiyadan asılı olur. Məsələn, ağır anemiyalı, hidropslu, assitli, tənəffüs-ürək çatışmazlığı ilə doğulmuş bir körpə doğum yerindən süni nəfəs aparatına bağlanırsa, bu zaman bədənin müxtəlif boşluqlarına toplanmış mayenin boşaldılması üçün cərrahi müdaxilə tələb edilirsə və bu müdaxilələrlə paralel ürək-qan dövranının təmin olunması üçün müvafiq planlı müalicə gərəkirsə, deməli bu xidmətləri bir arada tutacaq mərkəz vacibdir. Bu sadaladığım əlamətlərlə doğulmuş bir neçə xəstəmiz kollektivin gərgin əməyi sayəsində həyata qayıdıb. Bütün bu xidmətləri göstərə biləcək müəssisədə çalışdığıma görə özümü çox şanslı sayıram”.

Şöbədə aparılan müayinə və müalicələr barədə məlumat verən şöbə müdiri bir sıra ağır hallardan söhbət açıb: “Məsələn, əkiz-əkizə transfuziya sindromu ağır diaqnozdur. Bu sindrom eyni plasentanı paylaşan əkizlərdə baş verir. Əgər iki dölün də istifadə etdiyi plasentanın damarlarında bağlantı olarsa, bu



zaman orta damar paylaşımı nəticəsində körpələrdən birinə çox qan (alıcı), digərinə isə az qan (verici) gedəcək. Bətndaxili fetal cərrahi müdaxilələrlə, müəyyən tədbirlər görülərək bu dönəm qismən uzadılır. Lakin doğuşdan sonra qanverici körpədə qanazlığı, alıcı körpədə isə qan çoxluğunun yaratdığı həyati vacib orqanyetməzliyi yaranır. Dünya statistikasına görə, belə xəstələrin hər ikisini xilas etmək çətindir. Bu diaqnozla şöbəmizdə hamiləliyin 27-ci həftəsində bətndaxili cərrahi müdaxilə ilə doğulan, 1100 qr çəkisi olan əkizlərdən biri hazırda 3 yaşında sağlamdır. Eyni zamanda, 32-ci hamiləlik həftəsində yenə də bu üsulla doğulmuş körpələrin hər ikisi şöbəmizdə doğuşdan sonra 1 aya yaxın müalicə alaraq sağlam vəziyyətdə evə yazılıb və hazırda 3 aylıqdırlar”.

Mütəxəssisin sözlərinə görə, bətndaxili müdaxilə həyat qurtarır, vacibdir və elmi nailiyyətdir: “Hər bir müdaxilə olunmuş körpənin doğuşdan sonrakı məsuliyyəti bizim üzərimizə düşdüyündən, onların müalicəsi də əsaslı şəkildə bizdə aparılır. Lakin doğuşdan sonra uşaq cərrahının müdaxiləsi vacib ola biləcək patoloji diaqnozlar da var. Belə hallarda doğuşun təşkili, süni tənəffüsün başlanması, əməliyyata hazırlıq, kardioloq nəzarəti, uşaq cərrahının müdaxiləsi və digər amillərin bir yerdə idarə olunması çox əhəmiyyətlidir. Dünyada bu tip xəstələrin sağqalma riski 35% olarkən, klinikamızda göstərilən xidmət və əldə olunan nəticələr ürəkaçandır”.

# Məzunlarımız müstəqil həyata hazırdır

**Tələbəlik illəri insan həyatında ən yaddaqalan dövrlərdən biridir. Bu dövrü başa vuran gənclər müstəqil həyata atılırlar. Amma tələbəlik illərinin acılı-şirinli xatirələri, qazanılmış dostlar ömür boyu onları müşayiət edir. Hər il olduğu kimi, bu dəfə də Azərbaycan Tibb Universitetində təhsilini başa vuran məzunların təəssüratlarını öyrəndik.**

## Uğurlu karyera üçün onlar ATU-da həm yüksək təhsil, həm də praktik bacarıqlar əldə ediblər



**İsmayıl Nəzərli (I Müalicə-profilaktika fakültəsi):** - Həkim olmaq qərarımı 6 yaşımda vermişdim. Səbəbi isə həmin yaşda qəza keçirməyim və həkimlərin məni həyata qaytarması idi. 665 balla ATU-ya daxil oldum. Təhsillə bərabər, universitetin ictimai həyatında fəallıq göstərmişəm. Bir çox yarışlarda iştirak etmişəm. Heydər Əliyev Mərkəzində təşkil olunmuş yarışmada komandamız 3-cü yerə çıxıb. 2018-ci il dekabrın 21-də Azərbaycan Tələbələrinin II Qurultayında da iştirak etdim. Vətən müharibəsi dönəmində isə "Yeni Klinika"da dostlarımla birgə yaralı əsgərlərimizə tibbi xidmət göstərməyim ən yaddaqalan xatirələrimdən oldu.



**Sevde Leyla Ceylan (I Müalicə-profilaktika fakültəsi, Türkiyə vətəndaşı):** - Ali məktəbə qəbul imtahanlarını Türkiyədə verdim, 3 il Almaniyada tibb təhsili aldım. Sonra ailəmin məsləhəti ilə Azərbaycana gəldim və təhsilimi Azərbaycan Tibb Universitetində davam etdirdim. İlk gündən özümü burada yad hiss etmədim. Hər yerdə isti münasibət gördüm. Həm müəllimlərimdən, həm də tələbə yoldaşlarımdan olduqca razıyam. Tibb Universitetində oxumağımdan məmnunam. Burda xeyli dost-tanışlar qazandım. Universiteti bitirsəm də, əlaqələrimiz kəsilməyəcək.



**Fəridə Şahbazzadə (II Müalicə-profilaktika fakültəsi):** - 2016-cı ildə Gənclik İstək Liseyini bitirərək 517 balla ATU-ya daxil olmuşam. Həmişə imtahanlarda yüksək nəticələr göstərmişəm. Mən təkcə Tibb Universitetinə daxil olmamışdım, həmçinin Türkiyədəki ali məktəblərdə də oxumaq hüququ qazanmışdım. Amma həmin il xaricdə tələbələrin təhsil alma proqramı dayandırıldığı üçün Türkiyəyə gedə bilmədim. Görünür, qismət belə imiş. Ali məktəbə daxil olmaq üçün iki istiqamətdə hazırlaşdığım üçün Tibb Universitetinə elə də yüksək bal toplaya bilmədim. Bu səbəbdən ödənişli əsaslarla təhsil almağa başladım. Amma semestr imtahanlarında yüksək nəticələr göstərdiyim üçün hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin əmri ilə ödənişdən azad olundum. Bilik və bacarığımı dəyərləndirdiyi üçün rektorumuza, yaxşı təhsil verdikləri üçün universitetin bütün müəllimlərinə dərin təşəkkürümü bildirirəm. Təhsillə yanaşı, universitetin Tələbə Elmi Cəmiyyətində, Beynəlxalq Tibb Konqresində, Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının işində yaxından iştirak etmişəm, şəhid ailələri və qazilərin müayinə və müalicəsində əlimdən gələni əsirgəməmişəm.




**Nərmin Əhmədova (II Müalicə-profilaktika fakültəsi):** - Gəncədə M.C.Paşayev adına 39 saylı tam orta məktəbi bitirmişəm. Ölkə və region üzrə keçirilən fənn olimpiadalarında iştirak etmişəm. Ölkə üzrə kimya, region üzrə isə biologiyadan birinci yeri qazanmışam. Müxtəlif televiziyalarda keçirilən yarışlarda iştirak edərək, birinci olmuşam. Gələcəkdə oftalmoloq olmaq niyyətindəyəm. Hesab edirəm ki, dünya işığına yaranan əngəlləri aradan qaldırmaq, çoxsaylı insanların gözünə nur, sevinc bəxş etməkdən gözəl nə ola bilər? Oxuduğum müddətdə sevimli müəllimlərim də olub. Onlardan biri, ən çox sevdiyim Mübariz Allahverdiyevdir. Ondan çox şey öyrənmişəm. Vətən müharibəsi başlayandan bitənədək Gəncə Beynəlxalq Xəstəxanasında qazilərin sağlamlığının keşiyində dayanmağımla fəxr edirəm. Eyni zamanda, AKHA-nın da fəal üzvlərindənəm.



**Nəzrin Ömərli (İctimai səhiyyə fakültəsi):** - 6 il qrup rəhbəri və fakültəmizin aktiv tələbələrindən biri olmuşam. Kliniki bacarıqlarımı artırmaq üçün bir çox klinikalarda könüllü olaraq işləmişəm. Universiteti fərqlənmə diplomu ilə bitirirəm. Bunun səbəbi hər zaman qarşıma qoyduğum məqsəd üçün əzmlə çalışmağım və rəqibimin başqaları deyil, özüm olmağım olub. Təhsilini davam etdirən tələbələrə tövsiyəm odur ki, məqsədə çatmaq üçün əmək sərf etsinlər. Hər zaman "əvvəlki addımımdan bir pillə daha yüksək üçün nə edə bilərəm" sualına cavab axtarsınlar. Bütün məzunlarımıza bol-bol nailiyyətlər və geriyə dönüb baxarkən qürur duyacaqları yol arzulayıram. Və başda dekanımız Anar müəllim olmaqla, bu 6 ildə bizi həkim kimi yetişdirən, gözəl xatirələrlə dolu illər yaşadan müəllimlərimizə dərin təşəkkürümü bildirirəm.



**Əli Əliyev (Stomatologiya fakültəsi):** - Biologiya və təbabətə həmişə xüsusi marağım olub, universiteti özüm seçmişəm. Ancaq fakültə seçimim ailəmin məsləhəti ilə olub. Seçimimdən çox razıyam və bu sahədə özümü bəxtim gətirmiş hesab edirəm. Mənim kimi bir gənc üçün stomatologiyanın perspektivli sahə olduğunu düşünürəm. Xoş hisslərlə universitetdən ayrılıram. Hər gün geyindiyimiz ağ xalatın həyatımıza və düşüncəmizə təsiri çox böyük və əvəzolunmazdı. Sevindirici haldır ki, universitetdə hər bir tələbənin istedadını göstərməsi və mükəmməlləşməsi üçün çoxsaylı dərnəklər və klublar fəaliyyət göstərir. Tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün ideal şərait var. Mən həm də universitetin təşkil etdiyi bir çox tədbirlərin aparıcısı olmuşam.

Dərslər, o böyük mühazirə zalları, müəllimlərimizlə olan səmimi söhbətlər, gecikəndə fikirləşdiyimiz bəhanələr, korpusdan-korpusa qaçanda tez-tələsik yeyilən nahar... Bu və digər nüansların hamısı birlikdə bizim unudulmaz universitet həyatımızı formalaşdırdı.

Bu yolda mənə dəsdək olan bütün müəllimlərimə və tələbə dostlarıma minnətdarlığımı bildirirəm.



**Gülşən Qasımlı (Əczaçılıq fakültəsi):** - Əvvəllər müəllim olmaq istəyirdim, amma fikrimi dəyişdim. Buna səbəb nənəm və anamın həkim olması idi. İnsanların sağlamlığı marağımı cəlb edirdi. Evdəkilərin məsləhəti və dəstəyi ilə sənədlərimi IV qrupa verdim. Doğrusu, ya Müalicə-profilaktika, ya da İctimai səhiyyə fakültəsində oxumaq istəyirdim. Amma balım Əczaçılıq fakültəsinə çatdı. Bu fakültədə oxuyandan sonra isə sevindim ki, nə yaxşı, bura düşmüşəm. Sənədlərimi magistraturaya vermək istəyirəm. Gələcəkdə aptek şəbəkələrində, dərman şirkətlərində işləmək niyyətindəyəm.
Universitet təhsil verməklə yanaşı, mənə səbirli, çalışqan və prinsipial olmağı da öyrətdi. İxtisas fənnimə daha dərindən yiyələndim. Müəllimlərdən Sevil Mehralıyeva, Fuad Məmmədov, Könül Ağamirzəyeva, Nərmin Babayeva, Emiliya Balayeva, Aydan Qədimlini heç vaxt unutmayacağam. Dekanımız Fərəh Mədətli, dekan müavinimiz Esmira Hacıyeva həmişə bizə dəstək olublar. Sabiq dekanımız Kamandar Yaqublu da unudulmaz müəllimlərimizdəndir.



**Mustafa Levent (Stomatologiya fakültəsi, Türkiyə vətəndaşı):** - Azərbaycan Tibb Universitetini dostlarımın məsləhəti ilə seçmişdim. Tələbəlik illərində xeyli təcrübə qazandım. Azərbaycanda həmişə özümü vətənimizdəki kimi hiss etmişəm. Professor-müəllimlərimiz bizə hər an dəstək olublar.

Tələbəlik dövrümdə Azərbaycanın bir çox bölgələrinə səfər etdim. Gəncədə Nizami Gəncəvinin məqbərəsini, Cavad xanın qəbrini ziyarət etdim. Şamaxıda, Qubada oldum. Göygölün mənzərəsi isə çox möhtəşəmdir. Universitetdən zəngin xatirələrlə ayrılıram. Hər şey görə müəllimlərimə təşəkkür edirəm. İxtisasımı artırmaq üçün Almaniyaya getməyi düşünürəm.



**Cavid Heybətov (Hərbi tibb fakültəsi):** - Atam 31 il Azərbaycan Ordusunda xidmət edib. Məni hərbçi olmağa da o həvəsləndirib. 590 balla Hərbi tibb fakültəsinə daxil olmuşam. Ümumi göstəricilərim "A" ilə qiymətləndirildi, qırmızı diploma layiq görüldüm. Bu göstəricilər nəzərə alınaraq, mənə baş leytenant rütbəsi verildi. Təhsil dövründə təməl və klinik fənləri yaxşı mənimsəyə bildim.

Universitetdən rütbə, qırmızı diplom, gözəl təhsil və xoş təəssüratlarla ayrılıram. Mənə yüksək təhsil verdikləri üçün müəllimlərimə minnətdarlığımı bildirirəm. Peşəsini sevən, bacarıqlı həkim olacağıma əminəm.



**Kərim Heydərov (Hərbi tibb fakültəsi, feldşer):** - ATU-nu seçməyi orta məktəbdə kimya müəllimim Fuad Hüseynov məsləhət görmüşdü. Ürəyimcə olan bir ixtisasa yiyələndim. Universitetdə nizam-intizamlı, çalışqan olmağı öyrəndim. Dəyərli müəllimlər tanıdım. Ən əsası, vətənimizi müdafiə edən hərbçilərimizə necə tibbi xidmət göstərməyi, vətəni sevməyi öyrətdilər mənə. Naxçıvanda N saylı hərbi hissədə xidmətə yollanacağam. Bu, həyatımda yeni mərhələnin başlanğıcı olacaq. Gələcəkdə təhsilimi davam etdirmək niyyətindəyəm.

Bütün məzunlarımızı təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!

**Qabil ABDULLAYEV**

# Tanınmış əczaçı alimin yubiley tədbiri keçirilib

**◆ ATU-nun Elmi Tədqiqat Mərkəzinin Farmakologiya şöbəsinin müdiri, professor Ramiz Axundovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. ETM-də baş tutan tədbiri giriş sözü ilə açan universitetin Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov yubilyarın farmakologiya sahəsində əldə etdiyi uğurlardan danışıb.**



Qeyd edib ki, bu nailiyyətlər həm səhiyyəmizə, həm də universitetimizin kafedralarında çalışan müəllimlərə və təhsil alan tələbələrə öz töhfəsini verib. Həyatının böyük bir qismini elmin inkişafına həsr edən zəhmətkeş alimin gənclərlə apardığı işi də yüksək qiymətləndirən prorektor, eyni zamanda onu ailə dəyərlərinə daim sadiq qalan nümunəvi ailə başçısı kimi səciyyələndirib. O, universitetin rektoru, professor Gəray Gəraybəylinin təbrikini yubilyara çatdıraraq, əczaçı alimə gələcək fəaliyyətində uğurlar arzulayıb.



Bundan sonra R.Axundovun mənalı ömür yoluna işıq salan videoçarx nümayiş etdirilib.

Daha sonra Elmi Tədqiqat Mərkəzinin direktoru, professor Qalib Qarayev çıxış edərək, çalışdığı kollektivin dərin rəğbətini qazanan, üzərinə alimlik məsuliyyəti ilə yanaşı, bir ağsaqqallıq missiyası da düşən Ramiz müəllimin müsbət fərdi keyfiyyətlərini qabardıb. Son illərdə onun təşəbbüsü ilə orta məktəb şagirdləri arasında "Sabahın Alimi" layihəsinin uğurla həyat keçdiyini də vurğulayıb.

Dosentlər Taryel Eyvazov, Şimit Qasımov və Vidadi Xəlilov da iş yoldaşları, yubilyar haqqında xatirələrini bölüşüblər. Çıxışlar zamanı R.Axundovun şəxsiyyətində xeyirxahlıq, peşəsinə sonsuz sədaqət, yetirmələrinə qayğıkeş münasibət kimi keyfiyyətlərin cəmləndiyi diqqətə çatdırılıb.

ATU-nun kafedra müdirləri, professorlar Musa Qəniyev, Eldar Qarayev, İbadulla Ağayev, İctimai səhiyyə fakültəsinin dekanı Anar Ağayev, İctimai səhiyyə fakültəsi üzrə həmkarlar komitəsinin sədri Səidə Hacıyeva tanınmış alimin şərəfli ömür yolundan, əhatəli elmi yaradıcılığından, farmakologiyanın inkişafındakı xidmətlərindən bəhs ediblər.

M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin Cərrahiyyə şöbəsinin rəhbəri, professor Qurbanxan Müslümov alimin tələbələri adından çıxış edib. O, professor R.Axundovun tədqiqatlarının əhəmiyyətindən, Azərbaycanda yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasındakı xidmətlərindən danışaraq, yubilyarı təbrik edib.

Tədbirin sonunda ona təqdim olunan fəxri diplomu və hədiyyələri qəbul edən yubilyar göstərilən diqqətə görə doğma kollektivə və bütün iştirakçılara təşəkkürünü bildirib.

Müəllimlərini həmişə ehtiramla xatırladığını söyləyən professor R.Axundov, bu gün eşitdiyi səmimi, xoş sözlərdən sonra özünün də unudulmayacağına bir daha əmin olduğunu deyib.

**İxtisası – istedad**

# Kərküklü rəssam tələbəmiz

**İraq vətəndaşı Məryəm Ezulddin Husam qızı Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin sonuncu kursunda oxuyur. Əslən Kərkükdən olan Məryəm Azərbaycanı özünün ikinci vətəni hesab edir. Ölkəmizlə, xalqımızla, insanlarımızla bağlı xoş təssüratlara malikdir. Gələcəkdə plastik cərrah olmaq istəyən bu türkmən qızının həm də gözəl rəssamlıq qabiliyyəti var.**



O əsasən portret janrına müraciət edir və yağlı boyalarla gözəl rəsm əsərləri yaradır. Tələbə olduğu illərdə özünə çoxlu dostlar qazanıb: "Azərbaycan adı biz kərküklülər arasında həmişə sevilə-sevilə çəkilir. Kərkükdə deyirlər ki, biz eyni millətik, mədəniyyətimiz, adət-ənənələrimiz birdir. Bura gələndən sonra sizlərin necə mehriban, qonaqpərvər, qayğıkeş olduğunuzun bir daha şahidi oldum. Heç qəriblik çəkmədim. Sanki özümü doğmalarımın arasında hiss etdim".

Məryəmin bacısı Sünbül də ATU-nun məzunudur.

Heç şübhəsiz, Məryəmin Azərbaycanda təhsil almasında onun da rolu az olmayıb: "Bacım da Azərbaycanı sevir. Hələ də rəfiqələri ilə telefon əlaqəsi saxlayır, bir-birlərindən hal-əhval tuturlar".

İlk dəfə cizgi filmi qəhrəmanları Tom və Cerrinin rəsmlərini çəkib Məryəm Ezulddin. Bu həm valideynləri, həm də tay-tuşları tərəfindən yaxşı qarşılanıb. Sonra isə valideynlərinin, dostlarının portretlərini çəkib. Ən çox uğur qazanan əsərlərindən biri isə amerikalı pop-müğənni Billi Aylişin portreti olub, mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib.



Əsərlərində ən çox mavi, yaşıl, sarı rənglərdən istifadəyə üstünlük verir. Atası mühəndis, anası isə tanınmış həkimdir. Anası Samirə xanım qızının peşəkar cərrah olacağına inanır. Hesab edir ki, Məryəmin rəssamlıq qabiliyyəti gələcəkdə ona palastik-cərrah kimi çox kömək olacaq.

Məryəm həm də xına ilə əllərə müxtəlif naxışlar da çəkə bilir: "Xınayaxdılarda qızların əllərinə xına ilə naxışları mən çəkirdim. Kimin əlinə naxış çəkmişəmsə, hamının xoşuna gəlib. Azərbaycanda olan rəfiqələrim də əllərinə bəzi naxışların çəkilməsini məndən xahiş edib".

Kərküklü qız İraqda həkimlər arasında keçirilən rəsm müsabiqəsində də iştirak edib. Münsiflər heyətinin qərarı ilə o, birinci yerə çıxıb. Məryəm ona verilən pul mükafatını xərçəng xəstəliyindən əziyyət çəkən uşaqlara dərs ləvazimatının alınmasına sərf edib.

Bu genişqəlbli qız Azərbaycandan, sevimli müəllimlərindən, rəfiqələrindən ayrılmağın onun üçün çox çətin olacağını deyir. Arzusu təhsilini Almaniyada davam etdirməkdir. Həkimliyi ilə insanların sağlamlığı keşiyində durmaqla yanaşı, könülləri oxşayan rəsm əsərləri də çəkmək fikrindədir.

Məryəmə həyat yollarında uğurlar arzulayırıq!

**Qabil ABDULLAYEV**

# Sonsuzluq zamanı süni mayalanma yeganə çıxış yoludur?

## Həkim deyir ki, əvvəlcə təbii yolla hamiləliyə şans yaratmaq lazımdır

**◆ "Sonsuzluğu tam şəkildə yalnız laparoskopik müayinə təsdiq və ya inkar edə bilər. Laparoskopik müayinə aparılmadan, ancaq köməkçi metodlara (HSQ, USM və s.) əsaslanaraq qoyulmuş ilkin diaqnozla süni mayalanmaya müraciət etmək düzgün deyil". Bu fikirləri ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkim-ginekoloqu, cərrah-endoskopist Fərhad Sultanov söyləyib.**



Həkim vurğulayıb ki, sonsuzluğun müalicəsində İVF (süni mayalanma) laparoskopiyanın alternativi deyil, tam sonsuzluq müalicəsinin müxtəlif mərhələləridir: "Laparoskopiya tərəfindən təsdiqini tapmamış sonsuzluq süni mayalanmaya götürülməli deyil. İlk növbədə laparoskopiya boru-peritonal və ya inkişaf qüsurlu sonsuzluğun təsdiq və ya inkarını müəyyən etməlidir. Əməliyyat zamanı mümkün problemlər aradan götürülməlidir. Bunun əsasında sonrakı müalicə taktikası müəyyən etməklə, pasiyentin təbii yolla hamilə qalmasına şans yaratmaq lazımdır və yalnız laparoskopiyadan sonrakı müalicə effekt verməzsə, o zaman süni mayalanmaya getmək olar".

F.Sultanov bildirib ki, bəzən sonsuzluğun müalicəsində süni mayalanmanın laparoskopiyaya alternativ metod olması haqda fikirlərə rast gəlinir: "Halbuki, bunlar sonsuzluğun ümumi müalicəsinin etaplarıdır. Sonsuzluq laparoskopiya üsulu ilə öz təsdiqini tapmayınca və bu üsul ilə problemin aradan qaldırılması araşdırılmayınca, birbaşa süni mayalanmaya gedilməsi düzgün üsul deyil. Bildiyimiz kimi, sonsuzluğun səbəbləri arasında boru faktoru 35 faiz təşkil edir. Bəzən belə boruları infeksiya ocağı adlandıraraq qalmış borunu da götürərək xəstəni süni mayalanmaya göndərirlər. Bu yanaşma boru-peritonal faktorlu sonsuzluğun müalicəsində daha çox əhəmiyyətlidir".

Həkim bu sahədəki təcrübəsindən və əldə etdiyi bir sıra uğurlardan da danışıb. Bildirib ki, bir neçə il öncə 30 yaşlarında bir pasiyent birincili sonsuzluqdan şikayət edirmiş. Müayinə zamanı məlum olur ki, həmin xəstə yeddi il qabaq yumurtalıqlar üzərində laparotomik (açıq üsulla) əməliyyat keçirib: "Konservativ müalicənin effekti olmadığına görə, biz həmin pasiyenti sonrakı müalicə taktikasını müəyyənləşdirmək məqsədilə diaqnostik laparoskopiya və histeroskopiya əməliyyatına götürdük. Apardığımız diaqnostik laparoskopiya nəticəsində hər iki boruda keçiriciliyin olmaması müəyyən olundu. Əməliyyat zamanı isə qarın və kiçik çanaq boşluğunda açıq üsulla əməliyyatdan sonra yaranmış bitişmələr və uşaqlıq boşluğunun polipi aşkarlandı. Xəstədə laparoskopik adgeziolizis, ikitərəfli salpingovarioliziz, xromosalpinqoskopiya və histeroskopik polipektomiya əməliyyatı icra olunduqdan sonra hamilə qaldı. Bu fakt bir daha onu göstərir ki, sonsuzluğun müalicəsində süni mayalanma laparoskopiyaya alternativ metod deyil. Ona görə də xəstələr süni mayalanmadan öncə mütləq laparoskopik müayinədən keçməlidirlər. HSQ-nin nəticəsi süni mayalanmaya birbaşa göstəriş olmalı deyil və burada aşkarlanan boru keçməzliyi diaqnostik laparoskopiya ilə təsdiqlənməlidir. Sonsuzluğun müalicəsində laparoskopiya - dünyada qızıl standart kimi qəbul olunur".





Sonsuzluğu yaradan amillərdən bəhs edən həkim uşaqlıq borularının keçiriciliyinin pozulmasının bir səbəbinin iltihab olduğunu vurğulayıb: "Ən çox cinsi yolla keçən infeksiyalar, abortdan sonra baş vermiş infeksion ağırlaşmalar nəticəsində kiçik çanaq boşluğunda bitişmələr əmələ gəlir. Bu bitişmələr borunu tam və ya qismən bağlaya və yaxud borunu daraldaraq fibriyaların quruluşunu poza bilər və s. Uşaqlıq borusu və yumurtalıq arasında olan birləşmələr ovulyasiyadan sonra yumurtalıqdan çıxan yumurta hüceyrəsinin boruya düşməsinə mane olur. Bitişmələr çanaq boşluğu orqanlarında aparılan cərrahiyyə əməliyyatlarından (miomaların və kistaların xaric edilməsi, keysəriyyə və s.) sonra da əmələ gələ bilər. Bəzi hallarda bitişmələr appendiksin xaric edilməsindən sonra da yaranır. Uşaqlıq borularının keçiriciliyinin pozulması adətən ilk baxışda heç bir əlamətlə özünü büruzə vermir və yalnız qadın sonsuzluğu ilə bağlı olan müayinələrdən keçdiyi zaman aşkara çıxır".

# Bir kafedradan iki kitab

**◆ Bu tədris ili İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası üçün məhsuldar olub. Belə ki, bu günlərdə kafedranın müdiri, professor Rafiq Çobanov və dosent Yaqut Qarayevanın birgə həmmüəllifliyi ilə "Elmi tədqiqatların əsasları" dərsliyi ATU-nun "Təbib" nəşriyyatında işıq üzü görüb.**







284 səhifədən ibarət olan kitab gənc tədqiqatçıya bu sahədə müəyyən biliklərə sahib olmaq və gələcəkdə elmi tədqiqatların aparılmasında düzgün mövqe tutmaq baxımından çox faydalıdır.

Müasir dövrümüzdə elmin sürətli inkişafı hər bir sahədə yüksək savadlı və hərtərəfli inkişaf etmiş elmi kadrların hazırlanması tələbini gündəmə gətirir. Bu inkişaf səhiyyə sistemində də peşəkar və müasir tələblərə cavab verən kadr hazırlığına ehtiyac yaradır. Səhiyyə sahəsində aparılan islahatlar elmin və texnikanın nailiyyətlərinə əsaslanır, problemlərin müəyyən edilməsi və onların həlli yollarının axtarıb tapılması, cəmiyyət üçün səmərəliliyinin qiymətləndirilməsi məqsədilə elmi-tədqiqat işləri çox vacibdir. Lakin bəzən gənc tədqiqatçının elmi metodoloji üsullarla yaxından tanış olmaması səbəbindən müəyyən səhvlər ortaya çıxır. Tədqiqatçının elmi-tədqiqat işlərinin nəzəri prinsiplərini, onun təşkili və idarə olunması qaydalarını, tədqiqat anlayışı və terminologiyasını bilməsi, eləcə də müasir tələblərə cavab verən elmi araşdırma mövzularını seçmək bacarığının olması, bu sahədə müəyyən vərdişlərə yiyələnməsi çox vacib məsələdir.

Səhiyyə sistemində aparılan islahatlar, həmçinin səhiyyənin idarə olunması sahəsində savadlı və peşəkar menecer hazırlığını labüd edir. Bu səbəbdən bir çox ölkələrin tibb universitetlərində "Səhiyyə menecmenti" ixtisası tədris olunur. Bizim ölkəmizdə də ilk dəfə olaraq keçən tədris ilindən bu ixtisas üzrə magistr pilləsi üçün nəzərdə tutulmuş tədris aparılır. Müasir səhiyyə menecerinin elmi-metodoloji biliklərə malik olması onun müasir dövrdə elmin sürətli inkişafı ilə ayaqlaşması və istənilən sahədə elmi əsaslandırılmış fikir söyləməsi, tövsiyə verə bilməsi üçün vacibdir. Elə bu səbəbdən "Elmi metodologiyanın əsasları" fənninin magistratura təhsilində əsas fənn kimi tədris olunması nəzərdə tutulub. Həmçinin magistr təhsilinin sonunda magistr dissertasiyasının hazırlanması və müdafiə olunması şərtini də nəzərə alsaq, bu dərsliyin önəmi bir daha öz təsdiqini tapır.

Bundan başqa, R.Çobanov və kafedranın əməkdaşları, professor A.Ağayev, dosentlər M.Məhərrəmov və R.Liftiyevin birgə müəllifliyi ilə "Səhiyyə menecmenti. Testlər" adlı yeni metodiki vəsait "Təbib" nəşriyyatında çapdan çıxıb.

Tədris vəsaitində menecmentin bir çox məsələləri test şəklində təqdim olunub. Burada idarəetmə nəzəriyyəsinin əsas müddəaları, menecmentin yaranması və təkamülü, onun üsulları, modelləri öz əksini tapıb. Eyni zamanda səhiyyə orqanlarının təşkilati quruluşuna və fəaliyyətlərinin təhlilinə də yer ayrılıb.

Tədris vəsaitində işgüzar karyera və mümkün olan münaqişələrin idarəolunması, menecmentdə liderliyin rolu, tibbi marketinqin əsasları kimi müasir problemlər də işıqlandırılır. Məxsusi olaraq strateji və kliniki menecmentin sosial-psixoloji xüsusiyyətləri vəsaitdə əks olunub.

Bu testlər dərsliyin mənimsənilməsində yardımçı vasitə kimi də məqsədəuyğundur.

Kitab menecment ixtisasını seçən, eyni zamanda bu sahədə fəaliyyət göstərən, həmçinin tibbi təhsil alan tələbələr və eləcə də müxtəlif səhiyyə orqanlarında çalışan rəhbər işçilər üçün nəzərdə tutulur.

# Poliqlot Aslan Məmmədzadə tələbələrə dil öyrənməyin yollarını göstərib

**"Tələbələr səhvlərə yol verməklə də olsa, danışmağa can atmalıdır. Müəllimlər də tələbələri yönləndirməyi, həvəsləndirməyi bacarmalıdır". Bunu neyrolinqvistika təhsilli azərbaycanlı poliqlot, TedX layihəsinin iştirakçısı Aslan Məmmədzadə universitetimizin tələbələri ilə görüşündə bildirib.**



ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə keçirilən görüşdə A.Məmmədzadə tələbələrə dil öyrənməyin üsulları haqda danışıb.

Peşəkar səviyyədə 9 dil bilən və sərbəst danışan A.Məmmədzadə "Dil öyrənməyin üç qızıl qaydası" adlı təlimində qeyd edib ki, istənilən dildə onu öyrənməyə başladığın ilk gündən danışmağa cəhd etməlisən. "Kiçik addımlarla, səhvlər edərək danışmağa başlamalıyıq. Səhv etmək normaldır. Həftədə bir neçə dəfə kurslara getməklə dil öyrənmək mümkün deyil. Bunun üçün paralel olaraq oxumalı və dinləmə bacarığını da inkişaf etdirməlisən". Söhbətini zarafatlarla, əyləncəli formada aparan A.Məmmədzadə çıxışının sonunda tələbələrin suallarını cavablandırıb.

Qeyd edək ki, Aslan Məmmədzadə orta məktəbi Lənkəranda bitirdikdən sonra Türkiyədə Süleyman Dəmirəl Universitetində təhsil alıb. Azərbaycan, türk, rus, ingilis, polyak, ispan, fransız, italyan, alman dillərini tədris edən A.Məmmədzadə hazırda təsisçisi olduğu "Practical languages" şirkətində pedaqoq kimi fəaliyyət göstərir.

# Əsaslı Kitabxana EBSCO bazasından bəhrələnmək imkanı yaradır

**Bu gün hər yerdə olduğu kimi, Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanasında da informasiya təminatının yeni formaları həyata keçirilir. 2004-cü ildə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının təşəbbüsü əsasında ATU-nun Əsaslı Kitabxanası və Xəzər Universitetinin kitabxanası ilə birlikdə Açıq Cəmiyyət İnstitutu tərəfindən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KiK) yaradıldı. Konsorsium EİFL.net beynəlxalq konsorsiumunun üzvüdür.**



Hazırda ATU-nun Əsaslı Kitabxanası 25-dən çox üzvü olan Konsorsium çərçivəsində fəaliyyətini davam etdirir. Az.KiK-in ən böyük layihələrindən biri EBSCO elektron nəşriyyat bazasına üzvlükdür. Bazaya üzvlük ödənişlidir.

Əsaslı Kitabxananın internet resursları üzrə bölmə müdiri Solmaz Əzizova bildirib ki, bu məsələ ATU rəhbərliyinin diqqət mərkəzindədir: "Hər il üzvlük haqqının universitetimizə bölünən hissəsinin vaxtında ödənilməsi fəaliyyətimizə müsbət təsir edir. Qeyd edək ki, EBSCO elektron məlumat bazası aparıcı nəşriyyatların ələqələndiricisi kimi dünyanın müxtəlif yerlərində nəşr olunan sənədlərin elektron variantlarını oxuculara təqdim edir. Baza 14 elmi istiqamətdə kitab və jurnalların məlumat bazasına giriş təqdim edir. EBSCO-nun 375-dən çox müxtəlif elmi-tədqiqat bazasının resurslarına, o cümlədən 110 mindən çox elmi jurnal və 21 mindən çox elektron kitaba vahid nöqtədən çıxış imkanı var. Oxucuların http://search.ebscohost.com saytına rahat şəkildə daxil olması məqsədilə amu.edu.az saytının əsas səhifəsində EBSCO pəncərəsi yerləşdirilib. Pəncərə açılanda istifadə qaydası ilə tanış olaraq keçid vasitəsilə bazaya keçid etmək olar. Burada nüfuzlu beynəlxalq jurnallarda çap olunan məqalələrin PDF və HTML formatında tam mətnini əldə etmək mümkündür. Saytda HTML formatında olan məqalələr 1 dəqiqə ərzində istənilən dilə (Azərbaycan dili də daxil olmaqla) tərcümə edilir".

Qeyd edək ki, oxucular bu bazadan universitetin hüdudları daxilində İP-lərə qoşulmuş kompüterlərdə istifadə edə bilərlər. Bura daxildir: administrativ, tədris binaları və 4 klinika (Tədris Cərrahiyyə, Tədris Terapevtik, Onkoloji və Stomatoloji). Bundan başqa, Əsaslı Kitabxananın Virtual oxu zalındakı kompüterlərdə sözügedən bazaya çıxış mövcuddur. Hər hansı texniki problem zamanı kitabxananın əməkdaşlarına müraciət etmək tövsiyə olunur.

## Etibarsız sayılır

Mirzaei Farid Fathi oğlu (qrup 421 A 5a); Vəliyev Ülvi Asif oğlu (qrup 619S1a); Javadi Turkay Farhad qızı (qrup 737 A); Həsənəliyeva Fəridə Vüqar qızı (qrup 617A6): Obaid Marwan Noori (tələbə kontingenti); Vahabov Sayad Elgün oğlu (qrup 518R1b); Miriyev Eyyub Həsən oğlunun (qrup 317A6) tələbə bileti itdiyi üçün etibarsız sayılır. Miriyev Orxan Teyyub oğlunun müvəffəqiyyət kitabçası, I Daxili xəstəliklər kafedrasının assistenti Məmmədova Samira Seyfulla qızına 1997-ci ildə ATU tərəfindən terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Oftalmologiya kafedrasının əməkdaşları kafedranın dosenti Aybəniz Abdullayevaya atası

**Müzamil Abdullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın dosenti Tahirə Pənahovaya qayınatası

**Səməd Qaraisayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

II Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın assistenti Sarabəyim Mansurovaya anası

**Vera xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının əməkdaşları kafedranın dosenti Minayə Nəbiyevaya əzizi

**Qədirin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Anesteziologiya və reanimatologiya kafedrasının əməkdaşları kafedranın dosenti Qalib İmanova anası

**Vibar xanımın**

vəfatindan kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 1859
Sayı 2250